# YUBİLEYƏ HƏSR OLUNMUŞ QİYMƏTLİ TƏDQİQAT ƏSƏRİ

**di-mədəniyyət nümunələri əsasında ölkənin (ərazinin) qədim tarixi ilə bağlı yeni-yeni faktlar aşkarlamış olurlar. Ümumtəhsil məktəbində tarix müəllimi işləsəm də, pedaqoji fəaliyyətlə yanaşı eyni zamanda yaşadığım bölgənin tarixi, abidələri, toponimləri və etnoqrafiyasının tədqiqi ilə də məşğul oluram.**

Bölgənin arxeoloji abidələri haqqında yazarkən məlum olur ki, müxtəlif vaxtlarda ayrı-ayrı şəxslər (ekspedisiya üzvləri) tərəfindən bölgədə arxeoloji qazıntı və ya arxeoloji kəşfiyyat işləri aparılıb. Bölgənin arxeoloji abidələrinin aşkarlanması və tədqiqində böyük xidməti olan bu şəxslərdən biri Qoşqar Qoşqarlıdır.

### *Əzəmətli Qoşqar*

dağının adını özündə təcəssüm etdirən Qoşqar Oruc oğlu Qoşqarlı 1949-cu il sentyabrın 15-də Bakı şəhərində anadan olub, 1973-cü ildə BDU-nun tarix fakültəsini bitirib. 1981-ci ildə "Azərbaycanın antik və ilk orta əsrlər torevtikası" (torevtika qiymətli metallardan və tuncdan hazırlanmış avadanlıq deməkdir) mövzusunda fəlsəfə doktorluğu dissertasiyasını müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. 50 ilə yaxındır ki, AMEA sistemində çalışan Qoşqar Qoşqarlı hazırda AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun "Arxeoloji xidmət" şöbəsinin müdiridir. Qoşqar Qoşqarlının rəhbərlik etdiyi "Talış-Muğan arxeoloji




üçün zəngin elmi baza rolunu oynayıb. Qoşqar müəllim həmçinin Cənub-Şərqi Azərbaycanın arxeoloji xəritəsinin tərtibçilərindən biridir. "Azad Azərbaycan" qəzetinin 08 oktyabr 2019-cu il tarixli sayının 7-ci səhifəsində "Xarxatan toponimi" başlıqlı məqaləm işıq üzü gördü. Məqalənin aşağısında Hacı Tofiq Seyidzadənin müəllifliyi ilə "Arxeoloq-alimə həsr olunan məqalələr toplusu işıq üzü görüb" yazısı yerləşdirilmişdi. Yazını böyük maraqla oxuduqdan sonra məlum oldu ki, görkəmli arxeoloq-alim Qoşqar Qoşqarlının 70 illik yubileyinə həsr olunmuş kitab işıq üzü görüb. Bölgəmizin tarixi-arxeoloji abidələrinin tədqiqində böyük və əvəzsiz xidmətləri olan Qoşqar Qoşqarlı haqqında yazılmış kitab mənim üçün olduqca dəyərli olduğundan Qoşqar müəllimin həmkarı, bölgəmizdə (Masallı və Yardımlı rayonlarında) arxeoloji qazıntı işləri aparmış dostum gənc alim Anar Ağalarzadəyə

qalələr toplusudur. Kitab Bakıda, "Elm və təhsil" nəşriyyatında 500 tirajla işıq üzü görüb. Yüksək poliqrafik şəkildə çap olunmuş kitabın redaktoru tarix elmləri doktoru Nəcəf Müseyiblidir. "Azərbaycan arxeologiyasına dair tədqiqatlar" kitabında ölkəmizin arxeologiyası ilə bağlı ayrı-ayrı müəlliflərin, o cümlədən Anar Ağalarzadənin imzası ilə 17 məqalə, Qoşqar Qoşqarlının elmi əsərlərinin siyahısı və onun yazdığı şeirlərdən bir neçə nümunə verilib.

### *Bu qiymətli tədqiqat əsərindən*

tarixçilər, arxeoloqlar, tarix müəllimləri, tarix fakültəsinin tələbələri, tədqiqatçılar faydalana biləcəklər.

**Son olaraq hörmətli alimimizi 70 illik yubileyi münasibətilə təbrik edir, ona can sağlığı, uzun ömür və elmi fəaliyyətində yeni-yeni uğurlar arzulayıram. Eyni zamanda kitabın əldə edilməsində mənə yardımçı olmuş hörmətli Anar Ağalarzadəyə və "Dodo" qəzetinin baş redaktoru İradə Məlikovaya dərin təşəkkürümü bildirirəm.**

**İldırım Şükürzadə**
**Lənkəran rayonunun Havzava kənd tam orta məktəbinin tarix müəllimi**